**“Əmək pensiyaları haqqında”**

**AZƏRBAYCAN RESPUBLIKASININ QANUNUNDAN**

**ÇIXARIŞ**

**Maddə 20. Qulluq stajına görə əmək pensiyasına əlavələr**

20.1. Qulluq stajına görə əmək pensiyasına əlavələr aşağıdakı əmək pensiyaçılarına təyin edilir:

20.1.16. Əmək pensiyası yaşına çatmış və ya bu yaşa çatanadək əlil olmuş Hesablama Palatasının sabiq üzvləri;

20.1.17. Azərbaycan Respublikası Hesablama Palatasının üzvü və sabiq üzvü vəfat etdikdə, onun ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ailə üzvləri.

20.21. Bu qanunun 20.1.16-cı maddəsində nəzərdə tutulmuş şəxslərin əmək pensiyasına **Azərbaycan Respublikası Hesablama Palatası**nın fəaliyyətdə olan üzvünün əməkhaqqının, əməkhaqqıdakı sonrakı artımlar da nəzərə alınmaqla, 80 faizi miqdarı ilə bu qanunla təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər əlavə ödənilir.

20.22. Əmək pensiyası yaşına çatmış və ya bu yaşa çatanadək əlil olmuş Azərbaycan Respublikası Hesablama Palatasının sabiq üzvü səlahiyyət müddəti ərzində **Hesablama Palatasının sədri, sədr müavini və ya auditoru** vəzifəsində işləmişsə, onun əmək pensiyasına müvafiq olaraq Hesablama Palatasının sədrinin, sədrin müavininin və ya auditorunun əməkhaqqının əməkhaqqıdakı sonrakı artımlar da nəzərə alınmaqla, 80 faizi miqdarı ilə bu qanunla təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər əlavə ödənilir.

20.23. **Azərbaycan Respublikası Hesablama Palatası**nın üzvü və sabiq üzvü vəfat etdikdə, onların hər bir ailə üzvü üçün Hesablama Palatasının fəaliyyətdə olan üzvünün əməkhaqqının 80 faizi miqdarının ailə üzvlərinin sayına olan nisbəti şəklində müəyyən edilmiş məbləği bu qanunla təyin edilən ailə

başçısını itirməyə görə əmək pensiyasının məbləği arasındakı fərq qədər əmək pensiyasına əlavə ödənilir.

20.24. Əmək pensiyasına çıxmış, vəfat etmiş **Azərbaycan Respublikası Hesablama Palatası**nın sabiq üzvünün ailə üzvləri üçün onun əmək pensiyasının (qulluq stajına görə əlavələrlə birlikdə) tam məbləğinin ailə üzvlərinin sayına olan nisbəti şəklində müəyyən edilmiş məbləğlə bu qanunla təyin edilən ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği arasındakı fərq qədər əmək pensiyasına əlavə ödənilir.

20.25. Bu qanunun 20.1.16 və 20.1.17-ci maddələrində nəzərdə tutulmuş şəxslərin qulluq stajına görə əmək pensiyasına **əlavələr Azərbaycan Respublikası Hesablama Palatası**nın üzvünün orta aylıq əməkhaqqı, onun son 12 ay ərzində müvafiq olaraq Azərbaycan Respublikasının Hesablama Palatasından aldığı vəzifə maaşının və məcburi dövlət sosial sığortasına cəlb edilən bütün ödənişlərin cəminin 12-yə nisbəti yolu ilə müəyyən edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 7 fevral 2006-cı il**
**№ 54-IIIQ**